Ədalət 2019.- 26 oktyabr.- S.16.

***Rəşid KƏRİMOV***

## AĞDAM QİBLƏGAHIM

Mən aşıqəm Ağdama
Qara dama ağ dama.
Adama kəm baxanın
Gözlərinə ağ dama.

Ağdam qibləgahım, şərəfim, canım
Sənsiz quruyubdu damarda qanım
Sanki bu yuxudur keçən hər anım.
Gələcək azad gün, o azad anın
Güllü-çiçəkli bağların
Barlı-bahatlı bağların
Hanı o gözəl çağların
İndi qəlbin qan ağlayır.
Arıların şanı qoydu
İgidlərin canın qoydu
Həsrətdən çiçəklər soldu
Ayrılıqdan səbrim doldu.
Əsir düşən elə qurban
Quruyan su, selə qurban
Unudulmaz şöhrət, ad-san
Azadlıq gününə qurban.
Sənsiz keçən günüm qara
Sənsiz düşdük yaman hala
Tanrı, özün yet imdada
Qoyma möhtac qalaq yada.
Hər daşında izim qaldı
Arzular gözümdə qaldı
Xoşbəxt günlər səndə qaldı
Qarqar indi qan ağlayır
Xaçın baxıb yas saxlayır
Rəşidin qəlbi sızlayır
Sənsiz ürək buz bağlayır.

## YENİ DÜNYA

Dünyanı yenidən qurmaq istədik
Qaraldı buludlar, uçdu səmalar
Hərəmiz bir ağa olmaq istədik
Talandı torpaqlar, uçdu yuvalar.

Yaralı yurdumu talan etdilər
Bu qoca torpağı parçalayanlar
Qardaşı qardaşa düşmən etdilər
Sapı özümüzdən olan o yanlar.

Süfrəmizin artığını yeyənləri
Qalib deyib dölərinə döyənləri
Əzəcəyik xain donu geyənləri
Qarabağ yenə də nur saçacaqdır.

Yurdumun hər yanı gül açacaqdı
Arxalı köpək düşmən bil, qaçacaqdı
Haqq-ədalət öz yolunu bil tapacaqdı
Azad yurdum dünyaya səs salacaqdı.

Yenə şərbət bal dolacaq
İlhamla zəfər çalacaq
Düşmən yanıb xar olacaq
Azad görüb Qarabağı
Abad görüb Qarabağı.